


*Misir MƏRDANOV:*

# Varmış millətimin xətti bu imzalar içində!



**1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar (Ensiklopedik soraq kitabı).**
**1-ci cild. A hərfi. Bakı: "Təhsil", 2018, 480 səh.**

Çar hakimiyyəti müsəlmanların, o sıradan Azərbaycan türklərinin ali təhsil almasına hər vasitə ilə əngəl törədir, hətta bəzi ali məktəblərə qəbul olunmaq üçün şəxsən çarın özü onlara icazə verirdi. Buna baxmayaraq azərbaycanlıların savadlanmaq həvəsi bütün maneələri aşdı və soydaşlarımız Rusiya imperiyası müsəlmanları içərisində sayca ən çox ali təhsilliyə malik oldu.

Sovet dönəmində iddia edilirdi ki, 1920-ci ilədək yalnız 62 ali təhsillimiz olub. Bu kitab həmin iddianın puç və yalan olduğunu ifşa edir. Müəlliflərin Bakıdan başqa Moskva, Sankt-Peterburq, Qazan, Saratov, Kiyev, Xarkov, Odessa, Tallinn, Tiflis... kimi şəhərlərdəki mərkəzi arxivlərdə uzunmüddətli gərgin araşdırmalar apardıqdan sonra oradan gətirdikləri zəngin bəlgələr, sənədlər əsasında qələmə alınmış bu kitabda çar, Cümhuriyyət və sovet dönəmində nəşr olunmuş çoxlu qəzet-jurnal materialları da ilk dəfə elmi dövriyyəyə cəlb edilib və nəticədə 1920-ci ilədək əsasən Rusiya və Avropanın ali məktəblərində oxumuş 600-dən artıq soydaşımız haqqında ən dəqiq və geniş ensiklopedik-sorğu bilgi bankı yaradılıb.

Kitabda Azərbaycan Cümhuriyyətinin (1918-1920) ali təhsilli bütün müsəlman dövlət adamlarının sənədli tərcümeyi-halı ilk dəfə toplu halında ictimaiyyətə təqdim edilir.

Əsər bütün təbəqələrdən olan oxucular üçün nəzərdə tutulub.

**İnsanlar ata-babalarının şərəfini uca tutur, onların adına ləkə düşməsinin qarşısını bəzən hətta öz canları bahasına alırlar. Çünki ata-babanın şərəfi sonrakı bütün nəsillərin şərəfi deməkdir. Ulular şərəfli olduqda oğullar, nəvələr, nəticələr də başıuca, alnıaçıq gəzir, el içində qürurla "mənim babam, ulu babam filankəsdir" deyir.**

Millətlər də belədir. Onlar da öz tarixləri ilə fəxr edir, qürur duyur. Bəzən bu tarixdə ləkə gördükdə pərt olur, başını aşağı dikir, özündən küskünlük duyğuları yaşayır. Çox təəssüf ki, bu ləkələri millətin düşmənləri elə ustalıqla atır ki, ayrı-ayrı fərdlər bunu sezmir və düşmənin məkrinə uyaraq özünü başqaları ilə müqayisə edən zaman "biz niyə belə geridə qaldıq?!" deyə ruh düşkünlüyü yaşayır.

Övladı olduğumuz Azərbaycan xalqı tarixə Səfəvilər, Əfşarlar, Qacarlar kimi 3 böyük imperiya bəxş edib. Bu 500 illik tarixdə qürur duyacağımız hədsiz önəmli hadisələr vardır. Biz dünya tarix və mədəniyyətinə Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Ağaməhəmməd şah Qacar kimi imperatorlar, Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Heydər Əliyev kimi böyük siyasətçilər, Nəsirəddin Tusi, Yusif Məmmədəliyev, Kərim Kərimov, Lütfi Zadə kimi nəhəng alimlər, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Məhəmmədhüseyn Şəhriyar, Səməd Vurğun kimi dahi söz ustaları, Səfiəddin Urməvi, Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Səttar Bəhlulzadə, Bülbül, Rəşid Behbudov, Müslüm Maqomayev (nəvə) kimi əlçatmaz sənətçilər vermiş qüdrətli bir millətik. Türk dünyasının bir parçası, dünya Türk mədəniyyətinin bir zərrəsi olaraq öz töhfəmizi bu mədəniyyətə səxavətlə vermişik, bu mədəniyyət içərisində başımız həmişə dik olub.

Türk və müsəlman olduğumuza görə yüzillər boyunca düşmənlərimizin haqsız hücumlarına, təhqirlərinə məruz qalmışıq. Tarix boyunca Azərbaycan türklərini ərəb, fars istilaçıları, son iki yüz ildə isə çar və bolşevik Rusiyası əsarət altında saxlamağa çalışıblar. Ancaq biz onlara Babəklərin, Səttar xanların, Cavad xanların üsyanları ilə cavab vermişik. Həmin düşmənlər qılıncımızın kəsərini görüncə bizi hiylə ilə məğlub etmək yolu seçiblər. Bu işdə xüsusən fars və rus siyasəti daha "məharətli" olub. Fars şovinizmi kökümüzün türk yox, fars olduğunu sübut etmək üçün öz içimizdən Seyid Əhməd Kəsrəvilər yetişdirib, Rusiya mütləqiyyəti isə dəfələrlə millətimizi soyqırımına uğradaraq (bundan ötrü bir çox hallarda erməni daşnaklarından istifadə edərək) millətin qaymağı olan xan-bəyləri, ruhaniləri, tacirlər və ziyalıları bir sinif kimi aradan götürməyə çalışıblar. Təəssüflər olsun ki, bu işdə onlara zaman-zaman manqurdlaşdırdıqları dövlət məmurları və "ziyalılar" da yaxından kömək ediblər.

Məsələ bundadır ki, istər Romanovların 300 illik hakimiyyəti, istərsə də kommunistlərin 70 illik ağalığı dönəmində Azərbaycanda milli mədəniyyətin, elm və təhsilin inkişafı qarşısına süni əngəllər çıxarılıb və nəticədə həmişə özümüzü təqsirkar bilmişik. Çarlıq zamanında müsəlmanların (içində biz türklər də olmaqla) ali təhsil alması az qala yasaqlanmışdı, belə ki, müsəlman uşağı xüsusən texniki ali məktəblərə yalnız çarın icazəsindən sonra qəbul edilə bilərdi. Ana dilində dərslər keçilən orta məktəblər açılması ən böyük müşküllərlə qarşılaşırdı. Müəllimlər İnstitutunu bitirərək vətəninə qayıtmış Sultanməcid Qənizadə və Həbib bəy Mahmudbəylinin rus-türk məktəbi açmaqdan ötrü çəkdiyi əzabları tariximiz unutmayıb. Ana dilində mətbuat orqanları yaratmağın nə qədər çətin olduğunu təkcə bu sübut edir ki, "Həyat" 1905-ci ildə bütün Qafqazda yeganə türkcə qəzet idi.

Bütün bunları qonşu erməni və gürcülərdəki vəziyyətlə müqayisə edərkən dəhşətli fərq yaranır. Onlar xristian olduqları üçün qarşılarına heç bir maneə çıx(arıl)madan ali məktəblərə qəbul ediliblər, orta məktəblərini istədikləri qədər açıblar, öz dillərində və rusca sərbəst şəkildə qəzet və jurnallarını nəşr ediblər. Bu obyektiv şəraiti nəzərə almayan soydaşlarımızın böyük qismi yanlış nəticə çıxararaq bizim gürcü və ermənilərdən daim geri qaldığımızı düşünüblər.

XX əsrin ikinci onilliyində bolşevik Rusiyası Cümhuriyyətimizi devirərək Azərbaycanı ikinci dəfə işğal etdikdə hakimiyyət başına onlara sözsüz itaət edəcək və mümkün olduqca savadsız adamları gətirdilər. Yaxşı xatırlayıram, 1998-ci ilin sentyabr ayının 25-də keçirəcəyimiz Azərbaycan müəllimlərinin XI qurultayına hazırlaşırdıq. Qurultayda edəcəyimiz məruzə üzərində işləyərkən Azərbaycan təhsil tarixi ilə daha dərindən tanış olmağa başladıq. Bu zaman məlum oldu ki, 1920-22-ci illərdə Azərbaycan xalq maarif komissarı vəzifəsində işləmiş Dadaş Bünyadzadə birinci Azərbaycan sovetlər qurultayında deyib: *"Bizim Azərbaycanda əsrlər boyu heç bir iş görülməmişdir. Bu yaxınlarda biz bütün əhalini siyahıya aldıqda məlum oldu ki, cəmi 62 nəfər ali təhsili olan müsəlman vardır. Bu, aydındır, çünki Azərbaycanın öz ali məktəbi yox idi".*

Həmin vaxtdan bu fikrə şübhə ilə yanaşırdıq. İnanırdıq ki, arxivlərdə ciddi araşdırmalar aparılsa sovet hakimiyyəti qurulanadək ali təhsil almış azərbaycanlıların sayı qat-qat arta bilər.

Yuxarıdakı fikir başdan-ayağa yanlış idi və məqsəd azərbaycanlıların savadsız olduğunu göstərmək idi. Elə bu vaxtlar başqa bir qırmızı komissar milli mədəniyyətə xor gözlə baxaraq milli musiqimizə, milli ədəbiyyatımıza düşmən kəsilərək çəkinmədən deyirdi: "Doloy Nizamilər, doloy Füzulilər. Bizə Verxarnlar, Uitmenlər, Mayakovskilər lazımdır".

Çox sevinirik ki, xalqımızın istər hərbi-siyasi, istər mədəni, istərsə də elm və maarif tarixinə hansı dövrlərdən və hansı bucaq altında baxsaq qürur duya bilirik. Bizi bu qəti fikrə gəlməyə sövq edən amillərdən biri də Azərbaycan təhsil tarixi ilə müntəzəm məşğul olduğumuz zaman gəldiyimiz qənaətlərdir. Azərbaycanın təhsil tarixindən söz açmağa bizim mənəvi haqqımız var, çünki həm keçmiş təhsil naziri, həm də bu sahəni hərtərəfli araşdırmış bir alim kimi milli təhsil tariximizə yetərincə bələdik. 4 cildlik "Azərbaycan təhsil tarixi" kitabımızı hazırlayarkən əmin olduq ki, ən qədim dövrlərdən bu günümüzədək xalqımız elm və təhsilə yüksək qiymət verib və onun qabiliyyəti nəinki qonşularımızdan əskik deyil, əksinə, bir çox hallarda daha yüksəkdir. Eyni sözü yalnız orta təhsillə deyil, ali təhsillə də bağlı deyə bilərik.

Doğrudur, ümumən götürdükdə qonşu gürcü və ermənilərlə müqayisədə ali təhsil almış azərbaycanlıların sayı həmin dövrdə çox az idi, çünki, yuxarıda qeyd etdiyimiz kimi çarizm onların qarşısında yaşıl işıq yandırmış, bizim qarşımıza isə aşılması çətin olan kötüklər yuvarlanmışdı. Ancaq hətta bu obyektiv çətinliyi də nəzərə aldıqda azərbaycanlıların ali təhsildə geri qalmadığını, mümkün olmayanı mümkün etdiklərini görürük. Əlinizdəki bu kitab dediyimizin doğruluğuna əyani sübutdur. Biz bu kitabla xalqımızın ünvanına atılmış bədnam ləkəni təmizləməyə çalışmışıq və zənnimizcə, bunu bacarmışıq.

* * *

Bakı Avrasiya Universitetinin professoru Ədalət Tahirzadənin unudulmuş ziyalılarımız haqqında xüsusən "525-ci qəzet"dəki müntəzəm çıxışları diqqətimizi cəlb etmişdi. 2012-ci ildə təhsil naziri işlədiyimiz zaman onunla görüşdük və çıxışlarını "Azərbaycan müəllimi" qəzetində davam etdirməsini və ümumən bizimlə əməkdaşlıq etməsini təklif etdik. Tezliklə Ə.Tahirzadənin "Azərbaycan müəllimi"ndə ali təhsilimizlə bağlı silsilə yazıları dərc olundu.

Onunla ikinci birgə işimiz görkəmli təhsil tarixçisi Nərmin xanım Tahirzadənin (1921-2012) "Azərbaycan ziyalılarının tarixindən" adlı kitabı ilə bağlı oldu. Həmin əsərlə tanışlıq bizdə böyük maraq oyatmışdı. Qərara almışdıq ki, oradakı məqalə və oçerklərin bir çoxunu ana dilimizə tərcümə etdirək, müəllifin həmin kitaba daxil edilməmiş məqalələrini və başqa elmi materiallarını da onlara artırmaqla yeni bir kitab hazırlayaq. Bu məqsədlə Ə.Tahirzadəyə müraciət etdik. O, kitabı ana dilimizə çevirməyi və Nərmin xanımın başqa yazılarını da əlavə etməklə yeni bir kitab hazırlamağı öz üzərinə götürdü və oğlu Oğuztoğrul Tahirli ilə birgə bu işi vaxtında və layiqincə yerinə yetirdi. Hazırlanmış materialı birlikdə bir neçə dəfə müzakirə etdikdən sonra nəşrə verdik. Beləliklə, 2015-ci ildə Nərmin xanımın "Azərbaycan təhsil tarixi oçerkləri və ilk ali təhsillilərimiz" adlı möhtəşəm kitabı ortaya qoyuldu.

Ə.Tahirzadə ilə üçüncü birgə işimiz daha geniş, əhatəli və deyərdim ki, ümummilli əhəmiyyətli oldu. Uzun müzakirələrdən sonra bu qərara gəldik ki, 1920-ci ilədək - Azərbaycanda sovet hakimiyyəti qurulanadək ali məktəblərdə oxumuş soydaşlarımızı müəyyənləşdirək.

Əlbəttə, layihənin nəhəngliyi və çətinliyi ilk baxışdan aydın idi, ancaq qarşılıqlı əməkdaşlıq sayəsində bu işin öhdəsindən gələ biləcəyimizə bir-birimizi inandırdıqdan sonra layihənin planını hazırladıq. Plan 3 başlıca bənddən ibarət idi:

- *dünya arxivlərindən tələbələrin sənədlərini toplayaraq məlumat bankı yaratmaq;*
- *toplanmış materialı sistemləşdirərək nəşrə hazırlamaq;*
- *hazır materialları kitab şəklində nəşr etdirmək.*

Bunların hər biri özlüyündə çox çətin və vaxt aparan işdir, ancaq heç bir çətinlik qarşısında geri çəkilməyərək layihəni gerçəkləşdirməkdə qərarlı olduq.

İşə arxivlərdən sənədləri toplamaqla başladıq. Mövcud şəraitdə ən müxtəlif obyektiv səbəblər üzündən Avropa arxivlərində çalışmağımızın mümkün olmayacağını yəqinləşdirərək hələlik yalnız keçmiş SSRİ ərazisindəki arxivlərdə axtarış və araşdırma aparmağı məqsədəuyğun saydıq.

Biz Təhsil Nazirliyinə rəhbərlik edən zaman Ədalət müəllimi Kiyev, Xarkov, Odessa şəhərlərindəki mərkəzi arxivlərə ezam etdik. Yeri gəlmişkən, o, Kiyevdə 2 dəfə çalışmalı oldu. AMEA sistemində institut direktoru olduğum zaman da layihənin icrasında ləngiməyə yol vermədik. Ə.Tahirzadə ilə birgə səylər sayəsində Sankt-Peterburq, Moskva, Qazan, Saratov, Tiflis arxivlərindən tələbələrimizin xeyli sənədlərini gətirməyə nail olduq. Estoniya Dövlət Arxivində vaxtilə Derpt (Tartu) Universitetində oxumuş tələbələrimizin də sənədlərinin saxlandığını öyrəndik. Tallinndə yaşayan eloğlumuz Vidadi Məmmədovun yardımı ilə həmin sənədlərin surətlərini Bakıya gətirdik. Ədalət müəllim internet vasitəsi ilə Riqa Politexnik İnstitutu tələbələrinin də bəlgələrini əldə etdi. Bunlardan başqa, internetdən, özəl ailə arxivlərindən, çar, Cümhuriyyət və sovet dönəmi mətbuatından və b. qaynaqlardan da bir çox məlumatlar topladıq. Beləliklə, əlimizdə kifayət qədər zəngin material cəmləşdi.

İşin ikinci çətin mərhələsi əldə olunmuş materialları sistemləşdirib nəşrə hazırlamaq idi, çünki əlimizdəki 600-ə yaxın qovluqdakı sənədləri hansı sistem üzrə tərtib etməyi qabaqcadan müəyyənləşdirmək lazım idi, sonra müəyyən problemlər yaranmasın.

Əvvəlcə qərara aldıq ki, hər bir tələbə haqqında lap qısaca məlumat və onun bir fotoşəklini təqdim edək. Yeri gəlmişkən, elə başlanğıcdan bu layihəni Azərbaycan Cümhuriyyətinin (1918-1920) 100 illik şanlı yubileyinə ərməğan etməyi qərara almışdıq. İşin gedişində gördük ki, əlimizdə Cümhuriyyətin, demək olar ki, bütün ali təhsilli rəhbər və məmurları haqqında sənədlər var. Məsələ burasındadır ki, onların böyük əksəriyyəti haqqında indiyədək məlumat ya yox dərəcəsindədir, ya da olduqca az, yarımçıq və ziddiyyətlidir. Belə olduqda onlar haqqında geniş məlumat verməyi zəruri saydıq. Nəticədə başqa tələbələr haqqında da qısa deyil, ətraflı məlumat təqdim olunmasını məsləhət bildik.

Açığını deyək ki, biz işə başlayarkən yalnız bircildlik əsər hazırlayacağımızı düşünmüşdük, ona görə də soyadları müxtəlif hərflərlə başlayan tələbələrin sənədlərini eyni zamanda işləyirdik. Təxminən 3 ay sonra məlum oldu ki, bütün materialları bir cildə sığışdırmaq mümkün olmayacaq. Cümhuriyyətin yubileyi də qapı ağzında olduğuna görə heç olmazsa birinci cildi 2018-ci ilin 28 mayınadək masa üstünə qoymaq üçün ilk cildi oxuculara təhvil verməyi qərarlaşdırdıq. (Ölkə Prezidenti İlham Əliyev bütövlükdə 2018-ci ili "Cümhuriyyət ili" elan etdiyinə görə yerdə qalan materialları il boyunca nəşr etdirməyi düşünürük). Bu isə başqa çətinlik yaratdı, çünki "A" hərfi ilə başlamalı və indiyədək hazırladığımız xeyli materialı hələlik kənara qoymalı olduq.

Nəhayət işi istədiyimiz şəkildə sahmana sala bildik və əlinizdəki bu cildi ortaya qoyduq.

* * *

Azərbaycanlıların 1920-ci ilədək ali təhsil almasını bizdən öncə də araşdıran dəyərli alimlərimiz olub və onların xidmətini layiqincə yad etməyi vicdan borcumuz sayırıq. Həmin alimlər içərisində görkəmli tədqiqatçı, tarix elmləri namizədi, AMEA Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri, bütün alim həyatını əsasən Azərbaycan ziyalılarının, Azərbaycan təhsil tarixinin öyrənilməsinə həsr etmiş Nərmin xanım Tahirzadə (1921-2012) xüsusi yer tutur. O, keçmiş SSRİ-nin mərkəzi şəhərlərindəki bir çox arxivlərdə uzun illər ərzində araşdırmalar apararaq Azərbaycanın ilk ali təhsilli ziyalıları haqqında xeyli məlumat toplayıb və həmin mütəxəssislər haqqında ilk dəfə məqalələr yazaraq elmi məcmuələrdə nəşr etdirib. Təsadüfi deyil ki, Ağa bəy Yedigarov, İsmayıl Axundov, Əbdülkərim bəy Mehmandarov, Fətəli bəy Sultanov və başqaları haqqında ilk, yaxud ən dolğun məqalələrin müəllifi məhz Nərmin xanımdır.

N.Tahirzadənin fəaliyyəti haqqında dolğun təsəvvür yaratmaq üçün onun təkcə ali təhsilli hüquqşünaslarımızla bağlı araşdırmalarına ötəricə göz yetirək. Onun dəqiqləşdirdiyinə görə, ali hüquq təhsili almış ilk azərbaycanlı mütəxəssis Şəkidən olan İsmayıl Axundovdur. Ancaq 1900-cu ildən 1918-ci ilədək azərbaycanlılar içərisindən bu şəxslər universitetlərdə hüquqşünaslıq təhsili alıb: İmamverdi Adıgözəlov, Əsəd bəy Ağabababəyov, Əsədulla Axundov, Rəşid bəy Axundzadə, Əbdülqasım bəy Cəfərov, Məhəmmədyusif Cəfərov, Sabir bəy Əlibəyov, Mustafa bəy Əminov, Haşım bəy Əmircanov, Azad bəy Əmirov, İslam bəy Hacıbəyli, Yusif ağa Hacıqasımov, Sadıq bəy Hacınski, Rüstəm bəy Xoyski, Qasım Qasımov, Əkbər bəy Qazıyev, Zülfüqar bəy Makinski, Miryusif Mirbabayev, Mirzə İbrahim xan, Nəriman bəy Nərimanbəyli, Hüseyn bəy Paşabəyov, Əhməd bəy Pepinov, Paşa bəy Poladxanov, İsgəndər bəy Rəfibəyov, Şəfi bəy Rüstəmbəyli, Cəlil bəy Səfiyev, Aslan bəy Səfikürdski, Nəsrəddin bəy Səfikürdski, Səyyah Həmid, Hidayət Saleh oğlu Sultanov, Nadirşah Sultanov, Nurməhəmməd bəy Şahsuvarov, Heydər bəy Şahtaxtlı, Həmid bəy Şahtaxtlı, Mamay bəy Şıxlınski, Mustafa ağa Vəkilov, Miryusif Vəzirov, Adil xan Ziyadxanov və b.

Nərmin xanım ali təhsilli həkimlərimiz, mühəndislərimiz, iqtisadçılarımız və b. haqqında da bu cür yüksək səviyyəli tədqiqat aparıb. Qürurla bildiririk ki, dəyərli alimin vəfatından sonra onun qiymətli "Azərbaycan təhsil tarixi oçerkləri və ilk ali təhsillilərimiz" (Bakı: "Nurlar", 2015) kitabının hazırlanaraq nəşr edilməsi şərəfi bizə nəsib olub. Bu kitabımızda biz yeri gəldikcə müəllifə istinadla Nərmin xanımın da yazılarından istifadə etmişik.

Bir sıra araşdırıcılar ümumilikdə ali təhsillilərimizin tarixini araşdırmağı qarşılarına məqsəd qoymasalar da onların, həyatını öyrəndikləri çoxlu şəxslər arasında 1920-ci ilədək ali məktəblərdə oxumuş ziyalılarımız da var. Həmin tədqiqatçılar içərisində ilk növbədə mərhum Mövsüm Əliyevin adını çəkməliyik. O, adı yasaqlanmış bir çox "müsavatçı"nın həyatını hələ sovet dönəmində araşdıraraq "Qobustan" toplusunda, "Odlar yurdu" qəzetində və başqa mətbuat orqanlarında onlar haqqında ilk dəfə yazılar dərc etdirib. Ən qiymətli cəhət budur ki, haqqında M.Əliyevin yazdığı ali təhsilli şəxslərin əksəriyyəti Cümhuriyyət xadimləri idi.

Müstəqillik illərində ayrı-ayrı şəxslər haqqında tədqiqatlar daha da intensivləşdi. Ədalət Tahirzadə, Rafael Hüseynov, Vilayət Quliyev, Tamilla Kərimova, Əsgər Zeynalov, Xanlar Bayramov, Ənvər Çingizoğlu (Fərəcov), Nazif Qəhrəmanlı, İsmayıl Umudlu, Vasif Quluyev və başqa alimlərimizin və araşdırmaçı jurnalistlərin ortaya qoyduğu ciddi monoqrafiya və məqalələr də ali təhsillilərimizin həyatını öyrənmək baxımından çox əhəmiyyətlidir. Onların əməyinin məhsulundan da yeri gəldikcə oxucularımızı faydalandırmağa çalışmışıq.

* * *

Bu kitaba 1920-ci ilin 28 aprelinədək, yəni Azərbaycan Cümhuriyyəti süquta uğradılıb sovet hakimiyyəti qurulanadək ali məktəblərdə oxumuş azərbaycanlılar haqqında məlumatlar daxil edilib. Xatırladırıq ki, 1919-cu ilədək — Bakı Dövlət Universiteti (BDU) yaranana qədər Azərbaycanda ali məktəb olmayıb. Biz 1919-cu ildə BDU-ya qəbul edilmiş tələbələri bu kitaba salmamışıq. Məlumdur ki, Cümhuriyyət hökuməti 1920-ci ilin yanvarında ali təhsil almaq, yaxud ali təhsilini başa vurmaq üçün dövlət təqaüdü ilə əcnəbi ölkələrə 100 tələbə göndərmişdi. Bu kitaba onlar da daxil deyil, ancaq həmin tələbələrin içərisində 1920-ci ilədək müxtəlif ölkələrdə və müxtəlif kurslarda oxuyanlar vardır. Burada yalnız həmin tələbələrdən söz açılıb.

Bir məsələyə də toxunmağı vacib sayırıq. Əlbəttə, "ali təhsil" deyərkən ilk növbədə Avropa ali təhsil sistemini nəzərdə tutmuşuq, ancaq Azərbaycanda bir çox şəxslər ali dini təhsil aldıqları zaman həm də dünyəvi elmlərə dərindən yiyələniblər və vətənə döndükdən sonra xalqımızın savadlanmasında mühüm işlər görüblər. Seyid Əzim Şirvani (1835-1888) dediyimizə ən əyani sübutdur. O, özünün ali təhsil alması haqqında belə yazır:

*Oldum ol gün ki çardəhsalə,*
*Düşmədim fikri-dövlətü malə.*
*Eylədim arifanə kəsbi-ülum,*
*Gah Bağdad məskənim, gah Rum.*
*Eylədim Misrü Şamdə məva,*
*Gah yerim Yəsrib oldu, gah Bətha.*
*Oxudum nəhvü sərfü fiqhü üsul,*
*Hikmətü heyət eylədim məhsul.*

Şeirdən aydın olduğu kimi, Seyid Əzim 5 ölkədə oxuyaraq ən müxtəlif elmlərə incəliklə yiyələnib. Şamaxıya qayıtdıqdan sonra o, millət balalarının savadlanması üçün əlindən gələni edib. Belə bir ziyalını ali təhsil almamış saymaq olarmı? Bizcə, əsla yox! Buna görə də Azərbaycandan gedərək ali dini təhsil alıb Azərbaycana qayıdan zaman maarifçiliklə xalqına fayda verən bir çox şəxslər haqqında da kitabda məlumat verilir.

* * *

Çar dönəmində müsəlmanların ali təhsil alması, artıq yuxarıda qeyd etdiyimiz kimi, son dərəcə məhdudlaşdırılmış, texniki ali məktəblərə götürülməsi isə əslində tam yasaqlanmışdı və yalnız çarın şəxsi icazəsi ilə buna yol verilirdi. Bütün məhdudiyyət və qadağalara baxmayaraq, azərbaycanlılar Rusiya universitet və institutlarında oxumağa icazə verilmiş müsəlmanlar içərisində sayca ilk yeri tutur.

Rusiya ali məktəblərinə qəbul hər məktəbin öz Əsasnaməsi üzrə reallaşdırılırdı. Ancaq hamısı üçün ortaq olan ümumi tələblər də mövcud idi. Tələbələrin şəxsi işlərindəki sənədlərlə tanışlıq da bunu deməyə imkan verir. Ali məktəblərə qəbul üçün zəruri olan sənədlər bunlar idi:

*—rektorun (institutlarda direktorun) adına yazılmış ərizə;*

*—orta təhsili bitirməsi haqqında şəhadətnamə (attestat natamam orta təhsil zamanı verilirdi);*

*—doğum şəhadətnaməsi;*

*—silki mənşəyi (zadəgan — xan, bəy; dövlət məmuru; ruhani; tacir; şəhər sakini - meşşan; kəndli və b.) haqqında arayış;*

*—siyasi etibarlılığı haqqında arayış;*

*—əsgəri mükəlləfiyyət haqqında arayış (Zaqafqaziya müsəlmanları arayış verirdilər ki, biz hərbi mükəlləfiyyəti pulla ödəyirik).*

Sənədlərə 3 fotoşəkil və ali məktəbin xeyrinə təhsilhaqqı olaraq keçirilmiş məbləğin qəbzi əlavə edilirdi. Ali məktəbin istəyi ilə çiçək peyvəndi etdirməsi, atasının qulluq dəftərindən çıxarış, kasıblıq haqqında arayış və s. sənədlər də tələb edilə bilərdi.

Orta təhsilin ümumi kursu 7 illik idi. 7-ci sinfi bitirən şəxs orta təhsilli və çox savadlı sayılırdı; o, dövlət orqanlarında işləyə bilərdi. Ali məktəblərə girmək üçün isə əlavə 8-ci sinfi də bitirmək lazım idi. Bəzi ixtisaslara (məsələn, tibb fakültəsində) qəbul üçün latın dilindən imtahan vermək də zəruri sayılırdı.

Ali məktəblərin çoxunda tələbə qəbulu sadəcə abituriyentin ərizəsi əsasında həyata keçirilirdi. Belə ki, ərizəsinə zəruri sənədləri əlavə etmiş, təhsilhaqqını ödəmiş və bunları vaxtında etmiş hər kəs imtahansız götürülürdü. Ancaq fakültələrdə (bölümlərdə) qəbul yeri məhdud olduqda müsabiqə keçirilir və ixtisas üzrə imtahan götürülürdü. Texniki ali məktəblərə isə, bir qayda olaraq, qəbul müsabiqə imtahanları üzrə təşkil edilirdi, çünki həmin ali məktəblərdə bir yerə çoxlu ərizə verilir və ən savadlılar seçilirdi.

Çar dönəmində bir ali məktəbdən başqasına, yaxud bir fakültədən digərinə dəyişilməkdə, demək olar ki, problem yox idi; bundan ötrü sadəcə tələbənin ərizə verməsi kifayət idi. Tələbə siyasi baxımdan etibarlı sayılırdısa və keçmək istədiyi məktəbdə yer var idisə ən qısa müddətdə onun arzusu reallaşırdı.

Məktəbi dəyişmək istəyi bir çox hallarda ali məktəbin mövcud olduğu şəhərin iqliminin tələbəyə düşməməsindən, onun xəstələnməsindən irəli gəlirdi. Əsasən Sankt-Peterburq və Moskva şəhərlərində oxuyanlar buranın rütubətli havasına dözə bilmir, bir-iki semestr oxuduqdan sonra cənub şəhərlərinə köçürülməyə can atırdılar. Buna görə də azərbaycanlı tələbələrin şəxsi işlərində bir neçə ali məktəbdə oxuması ilə bağlı sənədlərə rast gəlirik.

Söz yox ki, haqqında kitabda söz açılmış bütün tələbələr oxuduqları məktəbi bitirərək diplom almayıb. Ancaq nəzərdə saxlamalıyıq ki, çar zamanında Rusiyanın ucqarı sayılan Azərbaycandan, xüsusən onun bölgələrindən Peterburq, Moskva, Kiyev və başqa şəhərlərə gedib ali məktəbdə hətta bir neçə semestr oxumağın özü fövqəladə bir iş idi. Azərbaycanlı gənclər təhsil aldıqları şəhərin və bölgənin tarixi, mədəniyyəti, iqtisadiyyatı ilə də maraqlanır, ali məktəblərdə ən məşhur professor və müəllimlərlə tanış olur, təhsil sisteminin incəliklərinə yiyələnirdilər. Belə gənclər hətta diplom almasa belə vətənə ziyalı bir insan kimi dönürdü. Bu səbəbdən biz hətta bir semestr belə oxumuş şəxsləri əsərə daxil etmişik.

Bunu da oxucuların nəzərinə çatdırmaq istəyirik ki, tələbə haqqında "sonrakı həyat və fəaliyyəti haqqında əlimizdə məlumat yoxdur" yazılması hələ o demək deyil ki, onun barəsində bundan sonra heç nə öyrənmək olmaz. Əksinə, ümidvarıq ki, bu kitab nəşr edildikdən sonra bir çox adamlar öz qohum-əqrəbasını taparaq onlar haqqında bizə əlavə məlumat verəcəklər. İnşallah, gələcək nəşrlər mümkün olarsa o zaman həmin məlumatlardan da istifadə edərik.

* * *

Bunu da diqqətə çatdırmaq istəyirik ki, topladığımız sənədlər yalnız tələbələrin həyatını öyrənmək baxımından deyil, ümumən o dövr təhsil sistemi üçün də maraqlıdır. Bircə faktı göstərmək istərdik. Tiflisdən gətirdiyimiz sənədlər içərisində Tiflis Aleksandr Müəllimlər İnstitutunun fəxri hamisi, 1-ci gildiya tacir Şəmsi Əsədullayevin 1896-1916-cı illəri əhatə edən 109 vərəqlik şəxsi işi var. Bu şəxsi iş bir çox baxımdan maraq doğurur.

Birincisi, Tiflisdəki ali məktəbə Azərbaycan tacirinin fəxri hami təsdiq edilməsi gerçəkdən əlamətdar hadisədir, çünki çar hakimiyyəti bu şərəfi, adətən müsəlmanlara nadir hallarda bəxş edirdi.

Ş.Əsədullayevin Cənubi Qafqazdakı bu cür nüfuzlu tədris müəssisəsinin hamisi olmasına icazə verilməsini ümumilikdə azərbaycanlıların təhsilə bəslədiyi isti münasibətin dəyərləndirilməsi saya bilərik.

İkincisi, bu qovluqda həm Şəmsi Əsədullayevin, həm də onun ölümündən sonra yeni fəxri hami seçilmiş oğlu Mirzə Əsədullayevin həyatı ilə bağlı çoxlu nadir sənədlər mövcuddur. Bu kitabın məzmun və məramına uyğun gəlmədiyinə və həcm məhdudluğuna görə geniş söz aça bilmədiyimiz həmin bəlgələr gələcəkdə araşdırılarsa onlarla bağlı çoxlu maraqlı faktlar ortaya qoyula bilər.

Üçüncüsü, qovluqdakı sənədlər arasında Şəmsi və Mirzə Əsədullayevlərin, Rəşid bəy Əfəndizadə, Səfərli bəy Vəlibəyov, Şeyxülislam Axund Əbdüssalam Axundzadə kimi görkəmli ziyalılarımızın, Müəllimlər İnstitutunun direktoru A.M.Zazuboviçin, hərbi valinin (general-qubernatorun) və b. şəxslərin imzaladıqları müxtəlif məzmunlu dəyərli bəlgələrlə rastlaşırıq. Məsələn, onların birində göstərilib ki, Şəmsi Əsədullayev özünün təsis etdiyi 2 təqaüd üçün İnstituta on min altı yüz (10.600) manat pul ödəyib. Başqa bir sənəddə isə Əsədullayevin İnstitutun maddi durumunu yaxşılaşdırmaq üçün otuz iki min doqquz yüz iyirmi (32.920) manat ödədiyi göstərilib. Etiraf etməliyik ki, bu, o zaman üçün çox böyük məbləğ idi.

Arxiv sənədləri içərisində tələbələrin yerdaşlıq cəmiyyətlərinin fəaliyyəti, idarələrarası bir çox yazışmalar, imtahan cədvəlləri, müxtəlif siyahılar və s. də az deyil, ancaq biz məqsəddən yayınmamaq üçün onlardan ən zəruri məqamlarda istifadə etmişik.

* * *

Bir qədər də kitabın tərtibi prinsipləri barədə.

İstifadə edilmiş mənbələrin düzgün göstərilməsi elmi əsərin başlıca məziyyətlərindəndir. Biz hər bir oçerkin sonunda qaynaqlar göstərmişik. Bu zaman öncə arxiv sənədləri, sonra kitablar, daha sonra isə jurnal və qəzet məqalələri qeyd olunub. Düşünürük ki, həmin qaynaqlar gələcək araşdırıcılar üçün faydalı ipucu ola bilər.

Xatırlatmağı lazım bilirik ki, qaynaqların adı qısaldılaraq verilib. Qısaltmalar isə ayrıca siyahı şəklində təqdim olunub.

Arxivlərdən gətirdiyimiz sənədlərin hamısı nadir istisnalarla rus dilindədir. Özü də onların 1920-ci ilədək olan imlası müasir orfoqrafiyadan yetərincə fərqlənir. Xüsusilə bəzi terminlər ya artıq çoxdan arxaikləşib, ya da onların dilimizdə qarşılığı yoxdur və həmin qarşılığı özümüz yaratmağa məcbur olmuşuq. Bu cür termin və sözlərin qısa sözlüyünün də tərtib edilməsini faydalı saydıq.

* * *

Bu gün bizə 1920-ci ilə qədər ali məktəblərdə oxumuş 907 nəfər azərbaycanlının adı bəllidir. Onların adlarını arxiv sənədlərinə və başqa qaynaqlara əsasən dəqiqləşdirmişik. Ancaq bu siyahının özü də tam deyil. İnanırıq ki, zaman keçdikcə yeni-yeni soydaşlarımızın adı bu siyahıya əlavə ediləcək.

Diqqətli oxucularımız görəcək ki, bu kitabda Avropada oxumuş ali təhsillilərimiz nisbətən az yer tutur. Bunun obyektiv səbəbi var - Avropa arxivlərində şəxsən araşdırma aparmaq imkanımız olmadığına görə oradakı ali məktəb tələbələrimiz haqqında tam bilgi verə bilmirik. Ancaq əminik ki, onların sayı bu kitabdakılardan qat-qat artıqdır. Biz bu qədərini bacardıq. İnşallah, gələcək araşdırmaçılar işimizi ləyaqətlə sona çatdırarlar.

Bir vaxtlar dahi şairimiz Məhəmməd Hadi bədbincəsinə yazırdı:

*İmzasını atmış miləl övraqi-həyata,*
*Yox millətimin xətti bu imzalar içində.*

Əlinizdəki bu kitabı ona görə yazdıq ki, hər biriniz onu oxuduqdan sonra ürəklə deyəsiniz: "Varmış millətimin xətti bu imzalar içində!".